AZƏRBAYCAN RESPUBLİKASI
BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISININ

# Ə M R İ

№ 56 «25» 06 2019 il

**Regionların İnkişafı Analitik İnformasiya Sisteminə məlumatların təqdim edilməsi ilə bağlı**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiq edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının yerlərdə icra vəziyyətinin təhlilinin aparılması məqsədilə mütəmadi olaraq tələb olunan məlumatlar Regionların İnkişafı Analitik İnformasiya Sisteminə (RİAİS-ə) daxil edilir.

Hazırda, RİAİS-in "Rəsmi yazışmalar" bölməsində "Tədbirlər" altbölməsi açılmışdır. Altbölmədə həm ümumrespublika əhəmiyyətli dövlət tədbirləri, milli, dövlət, peşə bayramları və xüsusi günlər, ölkə başçısının rayona səfəri, onun iştirakı ilə keçirilən tədbirlər, nitqindən irəli gələn vəzifələrin icrası ilə bağlı keçirilən yığıncaqlar, eyni zamanda, Rayon İcra Hakimiyyətinin başçısı yanında Şura iclasları, əhalinin müxtəlif zümrələri ilə keçirilən görüşlər, tabeliyində olan qurumların hesabat yığıncaqları və s. tədbirlərlə bağlı təsnifatlandırma aparılmışdır. Keçiriləcək tədbirlərə dair altbölmədə müvafiq məlumatların (*tədbirin adı, tədbirin təşkilatçıları, tədbirin iştirakçıları, tədbirin mətni və tədbirin məqsədi*) qabaqcadan RİAİS sistemində müvafiq bölməyə işlənməsi Binəqədi Rayon İcra Hakimiyyətinin İnformasiya təminatı və təhlil sektoruna tapşırılmışdır.

Qeyd edilənlərə əsasən və "Yerli İcra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının müavinləri, RİH başçısı Aparatının struktur bölmələrinin rəhbərləri, RİH başçısı sahə və qəsəbə inzibati ərazi dairələri üzrə nümayəndələri, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi RİAİS-də açılmış "Tədbirlər" altbölməsində nəzərdə tutulmuş tədbirlərin təsnifatı ilə tanış olsunlar (*forma əlavə olunur*).
2. RİH başçısı Aparatının struktur bölmələrinin rəhbərlərinə, RİH başçısı sahə və qəsəbə inzibati ərazi dairələri üzrə nümayəndələrinə, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisinə tapşırılsın ki, keçiriləcək tədbirlərə dair müəyyən edilmiş formaya uyğun məlumatların RİAİS sisteminin "Tədbirlər" altbölməsinə daxil edilməsi məqsədi ilə 2 (iki) gün əvvəldən Binəqədi Rayon İcra Hakimiyyətinin İnformasiya təminatı və təhlil sektoruna təqdim olunmasını təmin etsinlər.
3. Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, aidiyyatı məsul şəxslərin əmrin surəti ilə tanış olmalarını təmin etsin.
4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**